Valideynlər üçün

# Uşaqlarda bud-çanaq oynağı çıxığı

## Uşaqlarda bud-çanaq oynağı çıxığı
## CİDDİ ƏLİLLİK SƏBƏBİDİR

**Bəzən uşağın doğulması vaxtına qədər onun bud-çanaq oynağı tam inkişaf etmir. Anadangəlmə bud-çanaq oynağı çıxıqlarının formaları:**

**Tam çıxıq**

**Yarım çıxıq** (subluksasiya)

**Displaziyalar**



***Bu 3 hal oynağın nə dərəcədə inkişaf etməməsi ilə bir-birindən fərqlənir. Displaziyalar bud sümüyü başı və çanaq sümüyü (sirkə kasası) arasındakı əlaqənin pozulmasıdır. Vaxt keçdikcə pozulma daha da sürətləndiyi üçün müalicə çətinləşir. Buna görə də xəstəliyin vaxtında aşkar olunması müalicəni həm texniki olaraq asanlaşdırır, həm də sağalmanı sürətləndirir.***

# Həkimə nə zaman müraciət etməli?




**Valideynlər, əgər bu halları müşahidə edirsinizsə, yubanmadan həkimə müraciət etmək lazımdır:**

- ***Körpənin sağrı nahiyəsindəki büküşlərdə fərqin (qeyri-simmetrik) olması.***
- ***Körpələrdə ayaqların tam aralanmaması.***
- ***Ayağın daha çox düz açılmış vəziyyətdə qalması.***
- ***Ayaqlardan birinin digərindən qısa olması.***
- ***Pəncənin bayıra tərəf meyillənməsi.***

## USM müayinəsi diaqnostikanın skrininq metodu kimi qəbul edilə bilər

**Ultrasəs müayinəsi ilə diaqnostika uşaqların həm gələcək fiziki inkişafına əngəl təşkil edən bu xəstəliyin fəsadlarının qarşısını almış olur, həm də müalicə metodunu asanlaşdırır.**

Hər bir uşaq həyatının 1-ci ayında USM-dən keçməli, əgər müayinə zamanı uşaqda hər hansı bir patoloji halın olmasına şübhə yaranarsa, diaqnozun təsdiqlənməsi üçün uşaq həkim-ortoped müayinəsindən keçməlidir.

**Əgər uşaq ortopedi bud-çanaq çıxığı diaqnozu qoyarsa, dərhal həkim müdaxiləsi tələb olunur. İnkişafda olan uşaq vaxtlı-vaxtında müalicə olunmazsa, displaziya daha ağır formada keçə bilər. Unutmayın ki, bu patologiyanın müalicəsi uzunmüddətli və kompleks müalicə tələb edir.**

## MÜALİCƏ

**Müalicədə ilk 2-3 ay qızıl dönəm sayılır.**
**Müalicə məqsədilə həkimin tövsiyəsi ilə düzgün bələmə qaydalarına əməl edilməli, həmçinin müalicəvi gimnastikalar olmalıdır.Bundan başqa ortoped bəzi ortopedik vasitələr təyin edə bilər (Pavlik bandajı və müalicəvi şinlərin istifadəsi daxildir).**



İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Bakı, AZ1122, H. Zərdabi küç., 96
Tel: 431-60-88, Faks: 430-52-85
office@isim.az   www.isim.az

Vərəqə "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramının həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planı"na uyğun olaraq Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.